# İnsanlar barıt qoxusunu duymaq istəmirlər

## Nüvə təhlükəsizliyinin təminatı həm də terrora qarşı mübarizədir

**ABŞ Prezidenti Barak Obamanın azərbaycanlı həmkarı İlham Əliyevi Birləşmiş Ştatlarda keçiriləcək IV Nüvə Təhlükəsizliyi Sammitinə dəvət etməsi iki ölkə arasında münasibətlərin yüksələn xətlə inkişafının, tərəflərin qarşılıqlı əməkdaşlıqda maraqlı olmasının nümunəsidir.**



Məktubda Barak Obamanın "Azərbaycan qlobal nüvə təhlükəsizliyi arxitekturasına qətiyyətli dəstək nümayiş etdirir" ifadəsini vurğulaması Azərbaycanın beynəlxalq aləmdə təhlükəsizliyə verdiyi töhfənin dəyərləndirilməsidir. Türkiyənin Antalya şəhərində keçirilən "Böyük 20-lər"in sammitində MDB ölkələrindən yeganə olaraq Prezident İlham Əliyevin iştirakı, mərasimdə ABŞ Prezidenti Barak Obamanın cənab İlham Əliyevlə salamlaşması ölkəmizə olan səmimi münasibətlərin və ABŞ-Azərbaycan əməkdaşlığının sağlam təmələ əsaslanmasının və qarşılıqlı əlaqələr əsasında inkişafının göstəricisidir.

Çoxillik tarixə malik ABŞ-Azərbaycan əlaqələri 2001-ci ilin sentyabrında Amerikada baş verən dəhşətli terror aktından sonra yeni mərhələ üzrə davam etdirilir. Bu gün də enerji sahəsində əməkdaşlığa dair Memorandum imzalayan tərəflərin mövqeləri dəyişməz olaraq qalır. ABŞ ilə Azərbaycan arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri müxtəlif sahələr üzrə inkişaf edir.

Azərbaycanı Cənubi Qafqaz regionunda demokratiyanın mənbəyi hesab edən rəsmi Vaşinqton ölkəmizə bu istiqamətdə hər cür yardım göstərməyə hazır olduğunu bildirir, həm regionda, həm də dünyada sabitliyə töhfə verən, çiçəklənən və demokratik ölkə kimi suverenliyimizi və inkişafımızı qlobal tərəqqi, nailiyyət kimi qiymətləndirir. Prezident İlham Əliyevin Nüvə Təhlükəsizliyi Sammitinə dəvət edilməsi belə etimad və etibarın nəticəsidir.

... Nüvə, uran, kimyəvi, bioloji silahlar haqqında eşitdikdə ilk növbədə həyatı donduran, bütün canlıları məhv edən atom bombası yada düşür. İkinci Dünya müharibəsində Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atılan atom bombaları xatırlanır. O hadisənin dəhşətlərini, ağrı-acılarını bu gün də yaşayan insanları ölümə sürükləyən "göbələkvari" duman qatı nəzərdə canlanır.

...Sammitlərdə bir məqsəd naminə toplaşan, qüdrətli dövlətləri təmsil edən liderlərin bir araya gəlməsi qütblərə bölünən dünyamızda gözlənilən təhlükələrin qarşısının alınmasına yönəldilir.

Nüvə silahından istifadənin ağır fəsadları bu gün də hiss olunmaqdadır. Nəsillər dəyişilsə belə hələ də insanlar və canlı nə varsa aldıqları xəsarətləri yaşamaqdadırlar. Orta yaş nəslinə mənsub insanların yaddaşında qalan bir hadisəni xatırlatmaqla dəhşət saçan silahların necə ağır fəsadlar törətdiyini bir daha xəyallarda canlandırmaq olar.

... Xirosimaya atılan atom bombasından əziyyət çəkən, dəmək olar ki, son günlərini yaşayan bir qızcığazı müalicə edən həkim ona ölümünün yaxınlaşdığını deməyə cürət etmir. Günahsız bir körpənin müalicəsi qarşısında acizliyini etiraf etməyə belə cəsarəti çatmır. "Mən nə vaxt sağalacağam?" sualına həkimin cavabı belə olur: "Tez sağalmağın üçün sən gərək 100 min ədəd kağızdan quş düzəldəsən. O quşlar sənə sağlamlıq gətirəcək." Təbii ki, ömrü sona çatmaqda olan xəstə uşağın qalan günlərində həyata olan ümidinin qırılmaması üçün bu "müalicə" metodu yalnız mənəvi dəstək idi. Atom bombasının törədə biləcəyi dəhşətləri insanlara çatdırmaq üçün azyaşlı uşağın düçar olduğu əlacsız xəstəliyi barədə mətbuatda dərc olunan yazı bütün dünya uşaqlarını bir araya gətirdi. Dünyanın bütün qitələrindən, ölkələrindən uşaqlar yaponiyalı həmyaşıdlarının ünvanına saysız- hesabsız kağız "quşların qanadında" təsəlliverici məktublar göndərdilər. Hələ də ölümün, müharibənin nə olduğunu dərk etməyən uşaqlar bununla yaşıdlarının müalicəsinə yardım etdiklərini düşünürdülər. Təki o sağalsın. Təbii ki, göndərilən məktubların, düzəldilən "quşların" heç bir faydası olmadı. Amma bu kampaniya planetimizdə sülhün yaranmasına səs verən uşaqların həmrəylik, birlik nümunəsi kimi yaddaşlarda yaşandı. Bu, həm də silahların susdurulması üçün etiraz aksiyası idi. Təşkil olunan sammitlər həmrəyliyin böyüklər tərəfindən daha geniş şəkildə davam etdirilməsidir.

Elə bu səbəbdən də Seulda, Çikaqoda, Uelsdə, Haaqada keçirilən zirvə görüşlərində, konfranslarda nüvə təhlükəsizliyi ilə birlikdə eyni dərəcədə faciələr törədən terrora qarşı mübarizə məsələləri də aktual problem kimi müzakirə olunur, bəşərin xilası naminə bəyannamələr qəbul edilir. Sammitlər bütün dünya xalqlarını düşündürən, zamanına görə aktual olan məsələlərə həsr olunur. Nüvə təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi üçün səylərin artırılması, uzunmüddətli və səmərəli əməkdaşlıq məsələlərində daha ciddi addımların atılması, sülhün bərqərar olunması üçün silahlar üçün ayrılan vəsaitin insanların rahat, əmin-amanlıq şəraitində yaşamasına sərf olunması isə hər zaman həllivacib məsələlərdir.

Nüvə terrorizmi təhlükəsinin bu gün də mövcud olması narahatlıq doğurur. Seul Sammitinin plenar iclasında çıxış edən, nüvə təhlükəsizliyi ilə bağlı həyata keçirilən bütün səyləri bəşəriyyətin dinc gələcəyi naminə atılan addımlar kimi dəyərləndirən, "Azərbaycan bu qərarları yerinə yetirir, beynəlxalq birliyin bu istiqamətdə səylərini dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir" söyləyən Prezident İlham Əliyev müasir dünyada nüvə təhlükəsizliyinə dair çağırışlarla bağlı müzakirələrin səmərəli nəticə verəcəyinə əminliyini bildirdi.

1976-cı ildə Ermənistanda seysmik zonada tikilən, yararsız, istismar müddəti ötmüş Atom Elektrik Stansiyasının Cənubi Qafqaz respublikaları, bütünlükdə region üçün real təhlükə olduğunu diqqətə çatdıran, beynəlxalq birliyin diqqətini bu istiqamətə cəlb edən Prezident İlham Əliyev vurğuladı ki, bu cür müasir standartlara cavab verməyən AES-lər dünyada real təhlükə mənbəyi olmaqla ekoloji təhlükəsizlik baxımından da zərərlidir.

Unutmayaq ki, Çernobl AES-də baş verən qəza nəticəsində ölümcül xəstəliyə tutulan insanlar, onların övladlarının çəkdikləri əziyyətlər davam etməkdədir.

Dünyada sülhün, əmin-amanlığın tərəfdarı olan hər kəs milliyətindən, dinindən asılı olmayaraq atom silahlarından, qurğularından, ümumiyyətlə, kimyəvi və bioloji silahlardan istifadənin qəti əleyhinədir. Sammitlərin keçirilməsi bunu bir daha təsdiqləyir. Sülh, dialoq, əməkdaşlıq əsrində, bütün problemlərin silahların dili ilə yox, danışıqlar masası ətrafında həllinin mümkün olduğu müasir dövrümüzdə nüvədən dinc məqsədlər naminə istifadə üçün birlik, həmrəylik tərəfdarı olanların sayının artması sevindirici olsa da hələ də biri-birinə qarşı münasibətləri narahatlıq doğuran bəzi dövlətlərin digərini atom silahı ilə təhdid etməsi təhlükəli haldır. Bu gün bütün dünya xalqları Suriyada, İraqda, Yaxın Şərq ölkələrində baş verən qırğınların durdurulmasını istəyir.

Bir sözlə, müharibələrin törətdiyi yaralardan əziyyət çəkən, yorulan dünyamız artıq barıt qoxusunu duymaq istəmir. Korlanan ekoloji vəziyyət nəticəsində şikəst doğulan uşaqların sayının artdığı bir zamanda sülh arzusunda olan analar övladlarını əmin-amanlıq şəraitində böyütmək istəyirlər.

NATO-nun keçirdiyi zirvə görüşlərində də nüvə müharibəsi ilə terror eyni səviyyədə bəşəriyyət üçün təhlükə mənbəyi adlandırılır. Alyansın Çikaqoda keçirilən zirvə toplantısında terrorizmlə mübarizədə, enerji təhlükəsizliyi, kibertəhlükəsizlik məsələlərində Azərbaycanın xidmətlərinin yüksək dəyərləndirilməsi, Sammitin yekun Bəyannaməsində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəndin yer alması ölkəmizə artan marağın ifadəsi idi. 50 dövlətin iştirakı ilə geniş tərkibli toplantıda aparılan müzakirələr göstərdi ki, dünyada sülhün bərqərar olması qlobal məsələ kimi aktuallığını qoruyur. Diqqət mərkəzində olan məsələlərdən biri isə terrorla mübarizədə səylərin birləşdirilməsidir. Sammitlərdə qəbul olunan bəyanatlarda regional sabitlik üçün təhlükə törədən bütün addımlardan çəkinməyə edilən çağırışlarla bərabər, münaqişələrin beynəlxalq hüquq normaları, ölkələrin ərazi bütövlüyü şəraitində yalnız sülh, başqa dövlətin müstəqillik və suverenliyinə xələl gətirilməməsi şərtilə həllinə üstünlük verilməsi regional sülhə təminatdır.

Həmin Sammitdə çıxış edən Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq terrorizmlə mübarizədə etibarlı tərəfdaş rolunu davam etdirəcəyini bildirərək vurğulamışdır ki, Azərbaycan illərdən bəridir ki, Əfqanıstanda sülhün və təhlükəsizliyin təmin olunmasında bütün səylərini ortaya qoyur.

Koreyada təşkil olunan Seul Nüvə Təhlükəsizliyi Sammitindən sonra 2014-cü ildə Haaqada (Niderlanda) eyni adlı daha bir Sammit keçirilib. Sammitlərdə çıxış edən Prezident İlham Əliyev Azərbaycanın sulhsevər siyasətindən söz açb. ABŞ və Avropanın bir neçə dövlətini birləşdirən NATO-nun Uels Sammitində də Azərbaycanla əməkdaşlığa böyük önəm verdiklərini diqqətə çatdıran Alyansın rəsmilərinin vurğuladıqları kimi, Azərbaycan NATO üçün və NATO Azərbaycan üçün dəyərli tərəfdaşlardır. Hava məkanından istifadə və tranzit marşrutları vasitəsilə göstərdiyi siyasi dəstəyə görə ölkəmizlə əməkdaşlığa böyük önəm verdiyini bildirən NATO təmsilçiləri dəfələrlə bildirmişlər ki, XXI əsrdə qloballaşan dünyada hamının üzləşdiyi təhlükəsizlik çağırışlarının birgə işləyərək aradan qaldırılmasında rəsmi Bakı ilə əməkdaşlıqda israrlıyıq, dialoqumuzun və əməkdaşlığımızın güclü çərçivəsi vardır.

Nüfuzlu beynəlxalq hərbi qurum tərəfindən belə dəyərləndirmə Azərbaycanın növbəti diplomatik qələbəsi hesab edildi. Sammitdən Azərbaycanın gözləntiləri Bakıda keçirilmiş "Çikaqo Sammiti - Avroatlantika əməkdaşlığı üçün yeni imkanlar" adlı konfransın gedişində də səsləndirildi. Bakı üçün ən əhəmiyyətlisi Azərbaycanın ərazi bütövlüyünə rəsmi münasibətin bildirilməsi və qəbul olunan sənədlərdə ərazi bütövlüyümüzün dəstəklənməsi idi.

Bakıda keçirilən NATO PA-nın "Cənubi Qafqaz: çağırışlar və imkanlar" mövzusunda 86-cı Rouz-Rout seminarında da ölkəmizə önəmli tərəfdaş kimi xüsusi dəyər verildi. Belə tədbirlərin üçüncü dəfə Azərbaycanda keçirilməsi mürəkkəb region olan Cənubi Qafqazda iqtisadi inkişafı ilə liderlik edən ölkəmizə maraqdan irəli gəlir.

Seminarda "Bütün neft və qaz sərmayələrini bir yerə qoysaq Azərbaycan iqtisadi artım möcüzəsi yaratmışdır" kimi sözlərin səslənməsi ölkəmizin beynəlxalq aləmdə tutduğu mövqeyi daha da gücləndirir.

Bu gün də gözlənilən təhlükələrdən qorunmaq üçün həyəcan təbilinin çalınmasına əsaslar vardır. İŞİD, PKK, "Asala", "Əl-Qaidə", Taliban, Hizbullah kimi terror təşkilatlarının törətdikləri dəhşətləri, günahsız insanların edam edilməsini nəzərə alaraq gözlənilən təhlükələrin qarşısının alınması üçün ilk növbədə bu qrupları maliyyələşdirən, silahlandıran və təlimatlandıran mənbələrə qarşı mübarizə aparılmalıdır. Bütün səylər sülh çağırışına xidmət etməlidir. Bu baxımdan ABŞ-da keçiriləcək IV Nüvə Təhlükəsizliyi Sammitindən gözləntilər çoxdur. Şimali Koreyanın hidrogen bombasını sınaqdan çıxardığı, İŞİD-in ən yüksəkdə uçan sərnişin avialaynerini və hərbi təyyarəni vura biləcək silah hazırlamaq, həmçinin uzaqdan idarə edilə biləcək minalanmış avtomobillər yaratmaq imkanına malik olması barədəki təhdidlərin səsləndiyi indiki zamanda belə sammitlərin keçirilməsi bəşəriyyətin qorunması baxımından vacibdir. Belə qorxulu təşəbbüslərin reallaşmaması üçün bütün dünya xalqları birləşməli, sülh naminə əməkdaşlıq möhkəmləndirilməlidir. Bu dünya mənim, sənin, bizim... hamımızındır. Özümüzü qoruyaq ki, dünyamıza sahib çıxaq.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***